# "Cəfər Cabbarlı. Seçmə dram əsərləri"

## ADPU-da TÜRKSOY tərəfindən hazırlanmış kitabın təqdimatı keçirilib

*Yanvarın 24-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) tanınmış dramaturq və şair Cəfər Cabbarlının 125 illik yubileyi münasibətilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən hazırlanmış "Cəfər Cabbarlı. Seçmə dram əsərləri" kitabının təqdimatı keçirilib.*

Bu barədə AZƏRTAC-a universitetdən bildirilib. Tədbirdə ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, TÜRKSOY kafedrasının rəhbəri professor Asəf Zamanov Cəfər Cabbarlının Azərbaycan ədəbiyyatına töhfələrindən bəhs edib. A.Zamanov C.Cabbarlının əsərlərinin Türk dünyasına verdiyi dəyərli mesajlarla zəngin olduğunu vurğulayaraq, bu cür nəşrlərin təkcə Azərbaycan üçün deyil, ümumilikdə Türk dünyası üçün böyük mədəni irsin qorunub saxlanılmasına xidmət etdiyini deyib. Prorektor təqdim edilən kitabın dramaturqun ədəbi irsinin təbliği baxımından böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Azərbaycan Respublikasının TÜRKSOY-dakı daimi nümayəndəsi, "Cəfər Cabbarlı. Seçmə dram əsərləri" kitabının redaktoru Elçin Qafarlı dramaturqun yaradıcılığının Türk dünyası üçün əhəmiyyətindən danışıb. Diqqətə çatdırıb ki, kitabda C.Cabbarlının yaradıcılığının müxtəlif dövrlərində qələmə aldığı 7 pyesin türk dilinə tərcüməsi yer alıb. Qeyd edilib ki, ötən ilin dekabrında Ankara şəhərində kitabın geniş təqdimatı keçirilib.

Daha sonra Cəfər Cabbarlının həyat və yaradıcılığına həsr edilmiş sənədli film nümayiş olunub, ədibin "Ana" şeiri səsləndirilib.

Tədbirdə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri professor Asif Rüstəmli "Cəfər Cabbarlı və milli istiqlal hərəkatı", ADPU-nun Ədəbiyyat kafedrasının professoru Təyyar Cavadov isə "Cəfər Cabbarlı yaradıcılığı metodoloji kontekstdə" mövzularında məruzə ilə çıxış ediblər.

Cəfər Cabbarlının ev-muzeyinin direktoru, yazıçının nəvəsi Qəmər Bağırova babasının zəngin irsi, həyat və yaradıcılığının müxtəlif dövrləri haqqında ətraflı məlumat verib, muzeyin gördüyü işlər, C.Cabbarlının irsinin qorunması və təbliği istiqamətində atılan addımlar barədə danışıb.

